***Lamiyə QASIMOVA*** *

# BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN PRİNSİPLƏRİNDƏ ZİDDİYYƏTLƏR


**Açar sözlər:** Beynəlxalq hüquq, prinsiplər, BMT Nizamnaməsi, ATƏT, Helsinki Yekun Aktı.

**Key words:** International Law, principles, UN Charter, OSCE, Helsinki Final Act.

**Ключевые слова:** Международное право, принципы, Устав ООН, ОБСЕ, Хельсинкский Заключительный акт.


Beynəlxalq münasibətləri nizamlayan hüquqi normalar qrupu mövcuddur. Beynəlxalq hüququn əsas prinsipləri onun universal və hamı tərəfindən qəbul olunmuş normalarıdır. Bu prinsiplərin nəinki hüquqi, həmçinin xüsusi siyasi və mənəvi qüvvəsi vardır. Diplomatik təcrübədə onlar beynəlxalq münasibətlərin prinsipləri adlanır. Dünyada qəbul edilən hər hansı siyasi qərar məhz beynəlxalq hüququn prinsiplərinə əsaslandıqda etibarlı sayılır.

Beynəlxalq hüququn əsas prinsipləri bir-biri ilə üzvi surətdə bağlıdır və biri digərini şərtləndirir. BMT Nizamnaməsinə uyğun olaraq dövlətlər arasında dostluq münasibətlərinə və əməkdaşlığa aid beynəlxalq hüquq prinsipləri haqqında 1970-ci il Bəyannaməsində qeyd edilir ki, bu prinsiplərin tədqiqi və təsfiri zamanı onların hər biri bütün digər prinsiplərin konteksində nəzərdən keçirilməlidir. Bu prinsip və normalara əməl etməmək dünyada yaranan xaosun, müharibələrin, ixtilafların yaranması səbəbi kimi çıxış edir.

Beynəlxalq hüququn ən mühüm prinsiplərindən olan dövlətlərin ərazi bütövlüyü prinsipi 1970-ci il BMT-nin «Prinsiplər Bəyannaməsi»ndə öz əksini tapmış və ərazi bütövlüyü haqqında beynəlxalq cəmiyyətin nöqteyi-nəzərini inkişaf etdirmişdir. Belə ki, 1970-ci il dekabrın 16-da qəbul olunmuş «Beynəlxalq təhlükəsizliyin gücləndirilməsi haqqında Bəyannamə»nin birinci prinsipi Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin 2-ci maddəsinin 4-cü bəndini təkrarlayırdı. Ərazi bütövlüyü prinsipinin elementlərini ifadə edən bəyannamədə xüsusi olaraq bildirilir ki, hər bir dövlət digər dövlətin ərazi bütövlüyü və milli birliyinin pozulmasına yönələn hərəkətlərdən çəkinməlidir. Sənədə görə, dövlətin ərazisi BMT Nizamnaməsinin müddəalarına zidd olaraq güc tətbiqi nəticəsində hər-

* **Lamiyə Qasımova** - Azərbaycan Dillər Universitetinin Beynəlxalq münasibətlər kafedrasının müəllimi





bi işğal obyektinə çevrilə bilməz və dövlətin ərazisi hədə-qorxu nəticəsində digər dövlətin obyekti ola bilməzdi. Lakin Kosovo, Qarabağ, Cənubi Osetiya və Abxaziyanın ayrılması və keçmiş Sovet respublikaları ərazilərində, həmçinin Yuqoslaviyada yeni dövlətlərin yaradılması ideyasının ilhamvericiləri söhbətin daxili, şərti sərhədlərindən getdiyini bildirirlər. BMT sənədlərində isə bir dövlətin digərlərinə qarşı hərəkətlərindən, bir dövlətin digərinin işğalına yolverilməzliyindən bəhs olunurdu. Ərazi bütövlüyü məsələsinə dair beynəlxalq hüququn konseptual zəifliyi məhz burada meydana çıxır.

Beynəlxalq hüququn mühüm prinsiplərindən biri güc tətbiq etməmək və ya güc tətbiq etməklə hədələməmək prinsipidir. Bu prinsipə görə aşağıdakı hərəkətlər hüquqa zidd hesab olunur: digər dövlətin beynəlxalq sərhədlərini pozmaq məqsədilə və ya beynəlxalq mübahisələri, o cümlədən ərazi və yaxud sərhəd mübahisələrini həll etmək üçün güc tətbiq etmək və ya güc tətbiqi ilə hədələmək; digər dövlətin ərazisində vətəndaş müharibəsinin və yaxud terror aktlarının təşkil edilməsi, onlara yardım edilməsi və ya birbaşa iştirak; digər dövlətin ərazisinin qanunsuz güc tətbiq etməklə işğal edilməsi. Beləliklə, güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipinin ən ağır pozuntusu silahlı təcavüz hesab olunur [1, 34]. Təcavüz və onun ən təhlükəli forması olan silahlı təcavüz anlayışları fərqlidir.

Dövlət aktı kimi təcavüzün anlayışı barədə beynəlxalq müqavilə olmasa da, BMT Baş Assambleyasının 14 dekabr 1974-cü il tarixli XXIX sessiyasında qəbul olunmuş 3314 saylı qətnaməsi mövcuddur. "Təcavüzün tərifi" adlanan bu qətnaməyə görə, aşağıdakı aktlardan hər biri təcavüz sayılır: bir dövlətin silahlı qüvvələrinin başqa bir dövlətin ərazisinə soxulması və ya basqın etməsi, yaxud hər hansı işğal; bir dövlətin silahlı qüvvələrinin başqa bir dövlətin ərazisini bombardıman etməsi və ya onun ərazisinə qarşı hər hansı silahın tətbiq edilməsi; bir dövlətin silahlı qüvvələrinin başqa bir dövlətin quru, dəniz və ya hava qüvvələrinə, yaxud dəniz və hava donanmasına basqın etməsi və s. [3]

Təcavüz aktının müəyyən edilməsi BMT Təhlükəsizlik Şurasının müstəsna səlahiyyətinə aiddir. Təhlükəsizlik Şurasının bu preroqativi, habelə "Təcavüzün tərifi haqqında" qətnamədə və Beynəlxalq cinayət məhkəməsinin Nizamnaməsində ifadə olunmuşdur. Lakin məlumdur ki, siyasi mülahizələr ucbatından çoxsaylı təcavüz aktları, birbaşa basqın faktları da daxil olmaqla, BMT Təhlükəsizlik Şurası tərəfindən lazımi tövsifini almamışdır. Buna ən bariz misal kimi Ermənistanın Azərbaycana qarşı törətdiyi təcavüz aktını göstərmək olar. Təəssüflər olsun ki, konfliktlə bağlı Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamənin heç birində təcavüz aktı və Ermənistanın təcavüzkar dövlət elan olunması barəsində heç nə deyilmir. Qeyd edək ki, güc tətbiq etməmək və ya güclə hədələmə-

ınək prinsipindən iki müstəsna hal mövcuddur, yəni beynəlxalq hüquqda yalnız iki halda silahlı gücün tətbiqinə yol verilir: Dövlət silahlı basqından özünü müdafiə etmək məqsədilə fərdi qaydada və ya başqa dövlətlərlə birgə və proporsionallıq prinsipinə əməl etmək şərtilə güc tətbiq edə bilər. Digər tərəfdən, sülhə təhlükə, sülhün pozulması və ya təcavüz aktı olduqda, BMT Təhlükəsizlik Şurasının qərarına əsasən güc tətbiq edilməsi mümkündür.

BMT Nizamnaməsinin 42-ci maddəsinə müvafiq olaraq, BMT Təhlükəsizlik Şurası hava, dəniz və ya quru qüvvələri vasitəsilə beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanması və ya bərpası üçün zəruri ola bilən tədbirlər görə bilər [3].

Tədqiqatdan ayrın olur ki, güc tətbiqinin qadağan edilməsi problemi hələ qədim dövrlərdən ən mühüm məsələlərdən olmuşdur. Tarix boyu bir dövlətin və xalqın təhlükəsizliyinin, ərazi toxunulmazlığının və siyasi müstəqilliyinin təmin edilməsi digər dövlət və xalqın mənafeyinin ziyanı hesabına, müharibələr, zorakılıq halları və silahlı münaqişələr doğurmuşdur. Lakin müharibələr və qanlı qırğınlar sivilizasiyanın dinc inkişafı yollarının axtarışı prosesini də inkişaf etdirmişdir. Bunun nəticəsində də beynəlxalq hüquq zor tətbiq etməmək və ya zor tətbiq etməklə hədələməməyi bir prinsip kimi rəsmi sənədlərdə təsbit etmiş və onu özünün ümumməcburi norması kimi qəbul etmişdir.

Azərbaycan Respublikasına münasibətdə də beynəlxalq hüququn bu mühüm prinsipi Ermənistan Respublikası tərəfindən pozulmuşdur. XX əsrin sonlarında SSRİ böhran keçirdiyi zamanlarda Azərbaycan qonşu Ermənistanın əsassız ərazi iddialarına məruz qaldı. Ermənistan Azərbaycana qarşı təcavüzkar siyasət yeridərək, onun ərazi bütövlüyünü güc tətbiq edərək pozmuşdur. Nəticədə beynəlxalq hüququn və həm də beynəlxalq münasibətlərin zor tətbiq etməmək və ya zorla hədələməmək, sərhədlərin toxunulmazlığı və ərazi bütövlüyü prinsipləri pozulmuşdur.

Müasir beynəlxalq hüququn on əsas prinsipini bəyan etmiş Helsinki Yekun Aktında xüsusi olaraq vurğulanmışdır: Heç bir güc tətbiqi və ya güclə hədələmə dövlətlər arasında yaranan mübahisələrin tənzimləmə vasitəsi kimi istifadə olunmayacaq [9]. Lakin təəssüflər olsun ki, bütün dövlətlər beynəlxalq hüququn prinsiplərinə daima riayət etmirlər. Buna ən bariz nümunə kimi, Ermənistanın Azərbaycana qarşı törətdiyi zorakılıq və işğalçılıq siyasətini göstərmək olar. Bu cür açıq-aşkar təcavüz aktları nəticəsində Azərbaycan Respublikası ərazisinin 20 faizə qədəri Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur. Ermənistan bunu özünümüdafiə hüququ yə erməni xalqının öz müqəddəratını təyin etməsi hüququ kimi əsaslandırmağa çalışır. Bu cür əsassız mülahizələrlə təcavüzkarlıq hərəkətlərinin ört-basdır edilməsinin heç bir əsası yoxdur. Çünki erməni xalqı artıq öz müqəddəratını təyin edərək, hətta qonşu xalqların torpaqlarını zorla tutaraq Ermənistan adlı dövlət yaradıb [6]. Beynəlxalq birliyin qəbul etdiyi sənədlər də Ermənistanın əsassız iddialarının, zorakılıq xarakteri daşıyan hərəkətlərinin əleyhinədir. ATƏT sənədlərində göstərilir ki, öz müqəddəratını təyin etmək məqsəd deyil, vasitə olmalı və xalqların kollektiv, dinc və demokratik yolla inkişafına xidmət etməlidir. Öz müqəddəratını təyin etmək başqa xalqların hüquqlarının pozulmasına, onlara qarşı zor tətbiq etmə hallarının yaranmasına gətirib çıxarmamalıdır. Zorakılıq millətlərin öz müqəddəratını təyin etməsində yol verilməzdir. Dövlətlər öz hərəkətlərinə haqq qazandırmaq üçün bəzi hallarda yalnız özünümüdafiə hüququna deyil, həm də digər arqumentlərə də əl atırlar. Belə ki, onlar bəzi hallarda humanitar müdaxiləni, yəni digər dövlətdə demokratiyanı bərpa etmək və ya insan hüquqlarının pozulmasının qarşısının alınması məqsədilə onun əleyhinə silahlı qüvvədən istifadəni qanuniləşdirməyə cəhd edirlər. Bəzənsə, zor tətbiq etmə aktlarına regional təşkilatların qərarı ilə haqq qazandırmağa çalışırlar [6].

Ümumiyyətlə, separatçı rejimlər bu və digər vasitələrlə, xarici dəstək faktoru ilə qeyri-qanuni şəkildə nəzarət altında saxladıqları ərazilərdəki fəaliyyətlərini "pərdələmək" üçün hər zaman beynəlxalq hüququn "milli özünütəyinetmə" kimi müstəsna prinsipinə istinad etməyə çalışırlar. Ermənistan tərəfi də belə bəhanələrlə çıxış edir ki, guya millətlərin öz müqəddəratını təyin etmək hüququ dövlətin ərazi bütövlüyündən daha öndə dayanır. Millətlərin öz müqəddəratını təyin etmək hüququnun bu cür bəsit şərhi ciddi qanuni maneələrə dirənir. Nə hüquq nəzəriyyəsində, nə hansısa dövlətin milli qanunvericiliyində, nə də beynəlxalq hüquqi sənədlərdə göstərilmir ki, "hər bir millət dövlətdir" düsturu hər hansı dövlətin çoxetniklik təcrübəsinə qələbə çala bilər. Daha dəqiqi, öz müqəddəratını təyin etmək prinsipi etnik qruplar üçün, hər şeydən əvvəl, daha geniş ictimai-siyasi prosesdə iştirak etmək hüququ deməkdir. Separatçılar üçün öz müqəddəratını təyin etmək prinsipi hər zaman ümumi dövlətdən qopma kimi destruktiv mahiyyət kəsb etmişdir. SSRİ dağıldıqdan sonra separatizm postsovet məkanında inanılmaz dərəcədə siyasətin aparıcı amilinə çevrilmiş, bəzi hallarda hətta "milliazadlıq hərəkatı" kimi qondarma və saxta məzmun almışdır [5].

ATƏT-in 1995-ci il iyulun 4-8-də Vyanada keçirilmiş sessiyasında qəbul edilmiş sənədlərdə göstərilirdi ki, öz müqəddəratını təyin etmək məqsəd deyil, vasitədir; kollektiv şəkildə dinc və demokratik inkişaf deməkdir; ayrılmaq hüququ mütləq hüquq demək deyildir; hər bir xalqın öz müqəddəratını təyin etmək hüququ başqa xalqların hüquqları ilə tarazlaşdırılmalıdır; bu prosesdə zorakılıq yolverilməzdir.

Qeyd edək ki, xalqların özünümüəyyənetmə prinsipinin məzmununu açıqlamaq üçün iki anlayış – "xalq" və "özünümüəyyənetmə" anlayışlarının məna yü-

künü düzgün bilmək lazımdır. Prinsipin kontekstində və ümumiyyətlə, beynəlxalq hüquqda "xalq", bir qayda olaraq, etnik anlamında başa düşülmür. Beynəlxalq hüquqi anlayış kimi "xalq" hər hansı milli və ya etnik qrupu deyil, məhz dövlətin və ya dövlətçilikdən qeyri-qanuni məhrum edilmiş ərazinin bütün əhalisini bildirir. Yəni "xalq" etnos kimi deyil, demos kimi başa düşülür. Yalnız xalq bütövlükdə bu hüququn daşıyıcısıdır. Xalqın bir hissəsinin, o cümlədən, milli azlıqların belə bir hüququ yoxdur. Bu, beynəlxalq hüquqda birmənalı olaraq qəbul edilmişdir.

"Özünümüəyyənetmə" o deməkdir ki, hər bir xalq xaricdən müdaxilə olmadan sərbəst olaraq özü öz siyasi statusunu müəyyən edə bilər və öz iqtisadi, sosial və mədəni inkişafını həyata keçirə bilər. Müstəmləkə altında olan və ya işğal olunmuş ərazinin bütün əhalisi üçün bu, müstəqillik əldə edilməsində və suveren dövlət qurulmasında; hər hansı bir müstəqil dövlətə qoşulmaqda, yaxud hər hansı bir müstəqil dövlətlə birləşməkdə ifadə oluna bilər. Təbii ki, müstəqil dövlətlərin xalqı da özünümüəyyənetmə hüququna malikdir [3].

XX əsrin əvvəllərində və sonunda mövcud imperiyaların süqutu ilə bir çox millətlər «öz müqəddəratının təyinetmə» prinsipinə əsaslanaraq milli dövlətlərini yaratdılar. Lakin «millət»in və ya «xalq»ın «öz müqəddəratını təyinetmə»si milli dövlətlərin yaranması ideyası ortaya çıxdığı vaxtdan ziddiyyətli və mürəkkəb məsələ olaraq qalmaqdadır. Milli dövlətlərin yaranması iki yeni həmsərhəd dövlət arasında demək olar ki həmişə münaqişə vəziyyətinin yaranmasına, ya da münaqişəyə səbəb olur. Buna səbəb sərhəd zonalarında hər iki millət nümayəndələrinin birgə yanaşı yaşamasıdır. Milli dövlətlərin yaranması ilə həmin ərazilərin hansı dövlətin tərkibinə daxil edilməsi məsələsi meydana çıxır. Bu vaxt həmin problem ərazinin hansı dövlət ilə ərazi bağlılığı olduğu nəzərə alınmaqla, yaxud həmin ərazidə yaşayan əhalinin hansı dövlətin ərazisində yaşamaq istəyi nəzərə alınmaqla referendum yolu ilə həll edilir [2, 37].

Bundan başqa, BMT Baş Məclisinin 18 dekabr 1992-ci il tarixli «Milli və ya etnik, dini və dili azlıqlara mənsub insanların hüquqlarına dair» Bəyannaməsinin 8-ci maddəsinin 4-cü bəndində azlıqlara müəyyən hüquqlar verilirdi və göstərilirdi ki, Birləşmiş Millətlər Təşkilatının məqsəd və prinsiplərinə, o cümlədən bərabər suverenlik, dövlətlərin ərazi bütövlüyü və siyasi müstəqilliyinə zidd olaraq hər hansı bir fəaliyyətə icazə verilməyəcək [4].

Beynəlxalq hüququn mühüm prinsiplərindən olan sərhədlərin toxunulmazlığı prinsipi ATƏT-in 1975-ci il avqustun 1-də imzalanmış Yekun aktında öz əksini tapmışdır. Sənədi Avropanın 33 dövləti, o cümlədən ABŞ və Kanada da təsdiqləmişdir. Sərhədlərin toxunulmazlığı prinsipi bütün qitələrə və dövlətlərə aid olmaqla, BMT Nizamnaməsinin qəbul edilməsi ilə təsbit olunmuş və inkişaf etdirilmişdir. Dövlətlərin ərazisi zor tətbiq etməklə hərbi təcavüz obyekti ola bilməz. BMT Nizamnaməsinə və ATƏT prinsiplərinə görə, iştirakçı dövlətlər bir-birlərinin ərazi bütövlüyünə hörmətlə yanaşmalıdırlar [5].





Beynəlxalq mübahisələrin sülh yolu ilə, heç bir təhdidsiz və zor işlətmədən həlli müasir beynəlxalq hüququn mühüm prinsiplərindən birinə çevrilmişdir. Beynəlxalq mübahisələrin həlli üçün müharibə və digər zor vasitələrinə müraciət etmək isə hüquqa zidd hərəkətdir.

Vudro Vilsonun 14 maddəlik prinsipləri sırasında yer almış V maddə "Müstəmləkələr üzərində suverenliklə bağlı bütün məsələlərin həllində əhalinin maraqlarının hökumətlərin ədalətli tələblərinə nisbətdə bərabər tutulması prinsipinə əsaslanaraq bütün müstəmləkə mübahisələrinin sərbəst, səmimi və mütləq bitərəflik mövqeyindən həlli" məsələsini göstərirdi. Eyni sənədin XII maddəsində isə göstərilirdi ki, Osmanlı imperiyasının türk hissəsi təminatlı və möhkəm suverenlik almalıdır, tabe edilmiş millətlərə təhlükəsizlik və "muxtar inkişafın mütləq pozulmaz şərtləri" təmin edilməlidir. Bununla, ABŞ ilk dəfə olaraq, öz maraqları naminə dünyada xalqların öz müqəddəratını təyinetmə prinsipini işə salmış oldu. ABŞ-ın rəhbərliyi ilə davam etdirilən bu proses, Versal müqaviləsi ilə daha da sürətləndi. 1990-cı illərdə xalqların öz müqəddəratını təyinetmə prinsipi Cənubi Qafqazı, Balkanları və digər ərazilərdıə də qan gölünə çevirdi. Bu ərazidə müharibələr yaşadığımız illərə qədər gəlib çıxdı.

Xalqlar öz müqəddaratını təyin etmək prinsipindən yalnız bir dəfə istifadə edə bilərlər. Əgər bir xalq öz müqəddəratını istədiyi qədər təyin etsə, o zaman dünyada hansı səviyyəli xaosun yaranacağını ehtimal etmək çətin olmaz. Yəni, demokratik dəyərləri siyasi təzyiq alətinə çevirmiş ABŞ-da, eyni zamanda, İspaniyada, Fransada, həmçinin, Rusiyada milyonlarla başqa xalqların nümayəndələri yaşayır. ABŞ-da yaşayan yarım milyondan artıq erməni muxtariyyət və ya başqa bir şey tələb etsə, Vaşinqton rəsmiləri ermənilərə öz müqəddəratını təyinetmə prinsipindən istifadə etməyə imkan verməsi qeyri-mümkündür. Halbuki, ABŞ-da yaşayan ermənilərin sayı Dağlıq Qarabağda yaşayanlardan dəfələrlə çoxdur. Bunu, eyni zamanda, Fransaya və digər dövlətlərə də aid etmək olar [7].

BMT nizamnaməsinin 51-ci maddəsi dövlətlərə onlara qarşı edilən hər hansı hücum zamanı özlərini müdafiə və gücdən istifadə etməyə haqq verirdi. Bu şəraitin yaranması üçün ani, gözlənilməz və qarşısı alınmaz bir vəziyyətin olması şərtdir. Dövlətlər bu haqlarından istifadə etmədən əvvəl Təhlükəsizlik Şurasına məlumat verməli və BMT nizamnaməsinin 41 və 42-ci maddəsinə uyğun olaraq müvəqqəti tədbirlər görməlidirlər. Müvəqqəti görüləcək tədbirlərə diplomatik, iqtisadi və hərbi sanksiyalar aiddir [8].

Xalqların öz müqəddəratını təyinetmə məsələsi beynəlxalq hüququn əsas prinsiplərindən olan ərazi bütövlüyü prinsipini pozmamalı, bu prinsiplə ziddiyyət təşkil etməməlidir. Əgər bütün xarici ölkələrdə yaşayan erməni icmaları yaşadıqları həmin ölkələrin ərazilərində "öz müqəddəratını təyin etmək" adı ilə yeni süni dövlətlər yaratsalar, onda dünyada, o cümlədən Fransa, ABŞ, Rusiya, Gürcüstan, Azərbaycan, Livan, Argentinada və erməni icmaları yaşayan digər ölkələrdə yüzlərlə yeni qondarma erməni "dövlətlər"i yaradıla bilər. Bu baxımdan, ermənilərin öz müqəddəratını təyinetmə hüququnu bəhanə etməsi beynəlxalq hüquq normalarının, xüsusilə dövlətlərin suveren bərabərliyi, zor işlətməmək və zor işlətməklə hədələməmək, sərhədlərin toxunulmazlığı, dövlətlərin ərazi bütövlüyü, mübahisələri dinc yolla nizama salmaq və başqa dövlətlərin daxili işlərinə qarışmamaq və beynəlxalq hüquqi öhdəlikləri vicdanla yerinə yetirmək kimi ATƏT-in Helsinki prinsiplərinin kobud şəkildə pozulması deməkdir.

Müasir mərhələdə beynəlxalq siyasətdə sərhədlərin toxunulmazlığı, dövlətlərin ərazi bütövlüyü, əsas insan hüquq və azadlıqlarına hörmət edilməsi, güc tətbiq etməmək və ya güclə hədələməmək, beynəlxalq mübahisələri dinc yolla həll etmək, daxili işlərə qarışmamaq, dövlətlərin BMT Nizamnaməsinə uyğun olaraq bir-biri ilə əməkdaşlıq etmək, xalqların hüquq bərabərliyi və müqəddəratını təyinetməsi, suveren bərabərlik, ölkələrin BMT Nizamnaməsinə uyğun olaraq öz üzərlərinə götürdükləri öhdəlikləri vicdanla yerinə yetirməsi kimi beynəlxalq hüquq prinsiplərini dünya dövlətləri qəbul etsələr də, bəzi oyunçular tərəfindən bu normalar kobud şəkildə pozulmuşdur.

Beləliklə, araşdırma göstərir ki, təcavüzkarın qarşısı alınmazsa, beynəlxalq güclərin dünyada sülhün və sabitliyin bərqərar edilməsinə yönəlmiş səyləri nəticə verməyə bilər, digər bölgələrdə də bir presedentə çevrilə və ərazi-etnik münaqişələrin miqyasının daha da genişlənməsinə səbəb olar.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Hüseynov L. Beynəlxalq hüquq. Bakı, Qanun nəşriyyatı, 2012, 368 s.
2. Ruintən K. Ermənistanın Azərbaycana təcavüzü və dünya siyasəti. Bakı: Adiloğlu, 2008, 260 s.
3. Beynəlxalq hüququn əsas prinsipləri // https://kayzen.az/blog/int-huquq/9561/beyn%C9%99lxalq-h%C3%BCququn-%C9%99sas-prinsipl%C9%99ri. html
4. BMT BM-in "Milli və ya etnik, dini və dili azlıqlara mənsub insanların hüquqlarına dair" 18 dekabr 1992-ci il tarixli Bəyannaməsi // http://www.r-komitet.ru/vera/32.htm
5. Cəfərov Z. Beynəlxalq hüquq normaları danışıqlar prosesində Azərbaycanın üstün mövqeyini təmin edir. // http://anl.az/down/meqale/azerbaycan/2010/ fevral/108438.htm
6. Murquzova Z. Güc tətbiq etməmək prinsipi – beynəlxalq hüququn ümumtanınmış prinsipi kimi // http://azhumanrights.az/guc-t%c9%99tbiq-etm%c9%99m%c9%99k-prinsipi-beyn%c9%99lxalq-huququn-umumtaninmis-prinsipi-kimi-murquzova-ziba/
7. Vəlibəyov R. Xalqların öz müqəddəratını təyinetmə prinsipi: nəzəriyyə və təcrübə // http://newtimes.az/ az/organisations/1333/
8. Charter of the United Nations // https://www.un.org/en/charter-united-nations/
9. Conference on security and cooperation in Europe, Final Act 1975 // https://www.osce.org/helsinki-final-act?download=true






## CONTRADICTIONS IN THE PRINCIPLES OF INTERNATIONAL RELATIONS
## SUMMARY


The article highlights the basic principles of international law, emphasizing that they are interconnected with each other and conditioned by the other. It is shown that failure to follow these principles and norms is the cause of the chaos, wars and conflicts in the world. Although the author has come to the conclusion that the principles of international law has been accepted by countries around the world, some of these players have been grossly violated by these norms.


## ПРОТИВОРЕЧИЯ В ПРИНЦИПАХ МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЙ
## РЕЗЮМЕ


В статье освещаются основные принципы международного права, подчерКивается, что они взаимосвязаны и обусловлены друг с другом. Показано, что несоблюдение этих принципов и норм является причиной хаоса, войн и конфликтов в мире. Хотя принципы международного права признаны странами всего мира, автор пришел к выводу, что со стороны некоторых игроков эти нормы грубо нарушаются.